MDB PAA DİMBİ Bakı filialının əməkdaşlarının MDB PAA iştirakçısı olan dövlətlərin Bakı şəhərində yerləşən səfirliklərində keçirilən seçkilər və referenduların müşahidəsində iştirakı

Azərbaycan Respublikasının ərazisində yerləşən və MDB PAA-ya üzv olan ölkələrin səfirliklərində keçirilən seçkilərdə MDB PAA Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun Bakı filialının əməkdaşları səsvermənin təşkili və gedişini müşahidə etmək məqsədi ilə mütəmadı iştirak edirlər. Onlar əvvəlcədən hər bir ölkənin Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçərək, beynəlxalq müşahidəçi vəsiqələrini əldə edirlər.

Seçkilərin müşahidəsinə dair qısa məlumatı və bəzi şəkilləri təqdim edirik.

MDB PAA DİMBİ Bakı filialının əməkdaşları 06 noyabr 2013-cü ildə Tacikistan Respublikası Prezident seçkilərini müşahidə etmək məqsədilə bu Respublikanın ölkəmizdəki səfirliyində olmuşlar.

3 noyabr 2014-cü ildə MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Moldova Respublikasının Bakıdakı səfirliyində təşkil edilmiş seçki məntəqəsində səsvermənin təşkili və gedişini müşahidə etmişlər.

4 oktyabr 2015-ci il tarixdə Qırğızıstan Respublikasının parlamentinə deputat seçkilərinin təşkili və səsvermənin keçirilməsinin müşahidəsi məqsədilə MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Qırğızıstan Respublikasının Bakıdakı səfirliyində olmuşlar.



1 mart 2015-ci il tarixində Tacikistan Respublikasının Parlamentinə seçkilər ilə bağlı MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Tacikistan Respublikasının Bakı şəhərində yerləşən səfirliyində təşkil olunmuş seçki məntəqəsində səsvermə günü səsvermənin təşkili və keçirilməsini müşahidə etmişlər.

MDB PAA DİMBİ Bakı filialının əməkdaşları 11 oktyabr 2015-ci ildə Belarus Respublikasının Prezident seçkilərini müşahidə etmək məqsədilə bu Respublikanın ölkəmizdəki səfirliyində olmuşlar.

MDB PAA DİMBİ Bakı filialının əməkdaşları 20 mart 2016-cı ildə Qazaxıstan Respublikası Parlament Məclisi Deputatlarının növbədənkənar seçkilərinin təşkili və keçirilməsinin müşahidəsi məqsədilə Qazaxıstan Respublikasının Bakı şəhərində yerləşən səfirliyində təşkil olunmuş 212 saylı seçki məntəqəsində olmuş və səsvermənin gedişini müşahidə etmişlər.

11 sentyabr 2016-cı il Belarus Respublikası Milli Məclisinin Nümayəndələr Palatasına seçkilərinin təşkili və keçirilməsinin müşahidəsi məqsədilə MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Belarus Respublikasının Bakı şəhərində yerləşən səfirliyində təşkil olunmuş seçki məntəqəsində olmuş və səsvermənin gedişini müşahidə etmişlər.

22 may 2016-cı il tarixdə Tacikistan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi üzrə Referendumun təşkili və səsvermənin keçirilməsinin müşahidəsi məqsədilə MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Tacikistan Respublikasının Bakı şəhərində yerləşən Səfirliyində təşkil olunmuş 54 saylı seçki məntəqəsində olmuş və səsvermənin gedişini müşahidə etmişlər.



15 Oktyabr 2017-ci il Qırğız Respublikasının Prezidenti seçkilərinin təşkili və keçirilməsinin müşahidəsi məqsədilə Qırğız Respublikasının Seçkilər və referendumların təşkili və keçirilməsi üzrə Mərkəzi Komissiyasında beynəlxalq müşahidəçi qismində qeydiyyatdan keçmiş MDB PAA DİMBİ Bakı filialının əməkdaşları Qırğız Respublikasının Bakı şəhərində yerləşən səfirliyində təşkil olunmuş seçki məntəqəsində səsvermənin gedişini müşahidə etmişlər.